BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2007*

## FƏLSƏFƏ

# C.ƏFQANİNİN HƏYAT FƏALİYYƏTİ
**Birinci məqalə**

**Q.C.MÜRŞÜDLÜ**
***Bakı Dövlət Universiteti***

Böyük islam mütəfəkkiri C.Əfqaninin dərin sosial-siyasi və dini-fəlsəfi məzmun daşıyan ideyaları çətin, ancaq şərəfli bir amala yönəlmişdi: islam dininin özəlliyini özünə qaytarmaq, onu xürafat və mövhumatdan təmizləmək, Quranın saf hikmətinə dönmək, islam prinsiplərinin ağıla uyğun şərhini vermək; müsəlmanların Qərb müstəmləkəçiliyinə qarşı dini-mənəvi və siyasi birliyinə nail olmaq, islam ölkələrində zülmün, istibdadın aradan qaldırılması üçün demokratik dövlət quruluşu (Konstitusiyanın qəbulu, parlament yaradılması və s.) uğrunda mübarizə aparmaq; Qərbin elmi nailiyyətlərini, yeni texnologiyalarını mənimsəmək və tətbiq etmək; müsəlmanların keçmişdəki döyüşkən, mübariz ruhunu özlərinə qaytarmaq və Qərb mədəniyyəti qarşısında təslimçilik meyllərinə qarşı mübarizə aparmaq. Bütün bunlar C.Əfqaninin islam aləminin oyanışı, müstəqilliyi, maariflənməsi və inkişafı üçün zəruri hesab etdiyi şərtlər idi.

C.Əfqani, həyat fəaliyyəti haqqında ən çox yazılan, araşdırmalar aparılan Şərq mütəfəkkirlərindəndir.[*] Amma bununla belə, onun doğulduğu il və yer, milli mənsubiyyəti və dinə münasibəti, habelə fəaliyyəti haqqında məlumatlar ziddiyyətli və mübahisəlidir. Qaynaqlarda və tədqiqatlarda mütəfəkkir sünni-hənəfi məzhəbinə mənsub ərəb, əfqan, hindli, şiəməzhəb iranlı və türk kimi təqdim edilir; daha çox isə Seyid Cəmaləddinin əfqanıstanlı, yaxud iranlı olması məsələsi ətrafında mübahisələr gedir. Və əslində bu mübahisələrin C.Əfqani üçün heç bir önəmi yox idi. Onun əsas amalı milliyyətindən asılı olmayaraq bütün müsəlmanları azadlığa, birliyə və tərəqqiyə qovuşdurmaq idi. Bu böyük mücahid üçün milli-irqi fərqlər, dini məzhəbçilik anlayışları mövcud deyildi. Bütün İslam aləmi onun Vətəni, islam ümməti isə milləti idi.

Böyük mütəfəkkirin həyatı, fəaliyyəti və ideyaları haqqında fərqli və ziddiyyətli bilgilərin toplanması bir sıra səbəblərlə izah olunur. Əsas səbəblərdən biri Seyid Cəmaləddinin daha çox Əfqani nisbəsi ilə məşhur

---

[*] A.Qüdsizadənin ötən əsrin sonlarına yaxın nəşr etdirdiyi biblioqrafik xülasədə C.Əfqani ilə əlaqədar 650-dən artıq əsərin adı göstərilir (13, s. 465). Buraya son 25-30 ildə dünyada nəşr olunmuş kitab, monoqrafiya və məqalələri də əlavə etsək, bu böyük islahatçının həyatına, fəaliyyətinə və ideyalarına marağın tam mənzərəsini təsəvvür etmək çətin deyil.

olmasıdır.[1] Onun nə üçün bu nisbəni götürməsini ingilis şərqşünası E.G.Braun «1905-1909-cu illərin İran inqilabı» əsərində belə əsaslandırır: «Çox güman ki, o əslən iranlı olduğundan sünni əhali yaşayan mühitdə asayiş və ruzigarını, əmniyyətini bərqərar etmək istədiyi üçün «Əfqani» olmağı qəbul etmişdir. O biri yandan bununla o, güvənmədiyi İran hökumətinin qısnamalarından uzaqlaşmış olurdu» (iqtibas üçün bax: 5, s.110). Bu mülahizəni tarixçi-tədqiqatçı T.Həsənzadə müasir İran tarixçisi M.Bamdadın XYIII-XX əsrlərdə İranın ictimai-siyasi həyatında mühüm rol oynamış görkəmli şəxsiyyətlərə həsr etdiyi «Tarixi-ricali İran» bioqrafik məlumat kitabından gətirdiyi bir faktla təsdiqləyir: əslən əfqanıstanlı olan və uzun müddət İranda yaşamış Sərdar İsgəndər xan Tehranda olan Seyid Cəmaləddindən soruşur ki, siz nə üçün özünüzü «Əfqani» kimi tanıtmısınız? Mən Əfqanıstanda olan bütün məşhur ailələri yaxşı tanıyıram və siz Əfqanıstanda yaşayan ailələrin heç birindən deyilsiniz. Seyid Cəmaləddin İsgəndər xanın sualına cavab verərək deyir ki, İran dövlətinin xarici ölkələrdə nümayəndələri vardır, onlar mənim həyata keçirmək istədiyim işlərə mane ola bilər və məni həbs edə bilərlər. Bu üzdən «Əfqani» olmuşam. Əfqanıstanın isə heç bir yerdə siyasi nümayəndəsi yoxdur və mən öz planlarımı arxayın həyata keçirə bilərəm, heç kəs də məni narahat etməz (7, s.18).

Deməli, C.Əfqani həm siyasi mübarizəsinə görə təqiblərdən qorunmaq məqsədilə, həm də müsəlmanlar arasındakı məzhəb ayrı-seçkiliyinin onun fəaliyyətinə mənfi təsir göstərə biləcəyindən dolayı özü haqqında fərqli, dəqiq olmayan bilgilər vermişdir. Mütəfəkkirin M.Əbdüh tərəfindən yazılmış və səhih mənbə kimi dəyərləndirilən, ancaq real faktları tam əks etdirməyən bioqrafiyasının*[*] da məhz bu cür məlumatlardan qaynaqlandığını demək mümkündür.

Buradan da Seyid Cəmaləddinin bir çox müasirləri, tələbə və həmfikirləri, eləcə də davamçıları və bir qisim tədqiqatçıları onun əfqanıstanlı olduğunu, Kabil şəhəri yaxınlığındakı Əsədabad kəndində dünyaya gəldiyini iddia etmişlər. Lakin bu iddialar dəqiq və tutarlı faktlara söykənmədiyindən (13, s.456-57; 17, s.5-8), onları gerçəklik kimi qəbul etmək çətindir.

Seyid Cəmaləddinin əfqanıstanlı olmamasına dair bir neçə faktı da amerikalı professor N.R.Keddi gətirir. O, göstərir ki, Hindistan hökumətinin aşkar etdiyi sənədlərə görə, C.Əfqani Əfqanıstanda ilk dəfə 1866-cı ildə görünür.[*]*[*] Və 1866-68-ci illərdə o əfqan olduğunu iddia etmir, özünü istanbullu türk kimi təqdim edirdi. Hamı onu Əfqanıstana gələnə qədər (yəni 1866-cı ilə qədər-Q.M.) naməlum olan bir əcnəbi kimi tanıyırdı. Həmin sənədlərdə həmçinin göstərilir ki, C.Əfqani İran farscasında danışırdı, bu da onun Əfqanıstanda böyüмədiyini göstərir. Müəllifin istinad etdiyi digər mənbələrə görə, Britaniya Xarici İşlər

---

[1] Məlumdur ki, mütəfəkkir əl-Hüseyni, əl-Əsədabadi və b. nisbələrdən də istifadə etmişdir.

*[*] M.Əbdüh (1849-1905) C.Əfqaninin tələbəsi və məsləkdaşı olmuşdur. O, mütəfəkkirin öz sözləri əsasında yazdığı bioqrafiyada Seyid Cəmaləddinin əfqanıstanlı olduğunu göstərir. M.Əbdüh bu bioqrafiyanı mütəfəkkirin «Həqiqət-i məzhəb-i neyçəri və bəyan-i hal-i neyçəriyan» əsərinin fars dilindən ərəbcəyə tərcüməsinin ilk nəşrində (ər-Rəd Ale d-Dəhriyyun, Beyrut, 1886) vermişdir.

*[**] Bu fikir tarixi faktlarla təsdiqlənmir. C.Əfqaninin özü isə 1860-cı ildə Əfqanıstanın siyasi həyatında yaxından iştirak etdiyini bildirirdi (14, s.7).

Nazirliyinin və ABŞ Dövlət Departamentinin ayrı-ayrılıqda apardıqları təhqiqatlar da C.Əfqaninin İran mənşəli olduğunu təsdiqləyir (17, s.6-7).

C.Əfqani bütün həyatı boyu həm arzularını gerçəkləşdirmək üçün, həm də böyük dövlətlərin təzyiqi ilə bir ölkədən digərinə keçmiş, Şərqin və Qərbin bir sıra mərkəzi şəhərlərində mübarizələrlə dolu, keşməkeşli bir ömür yaşamışdır. Və onun bu ölkələrdəki, məsələn, Rusiya, Əfqanıstan və Hindistandakı həyatı və fəaliyyətinin yetərincə öyrənilməməsi mütəfəkkirin ömür yolunun doğru və dolğun işıqlandırılmasını çətinləşdirmiş, bir çox qaranlıq məqamlara, ziddiyyətlərə yol açmışdır.

C.Əfqaninin həyatı, fəaliyyəti və ideyaları haqqında mübahisəli və ziddiyyətli, bəzən də qərəzli mülahizələr onun şəxsiyyətinə, siyasi mübarizəsinə və amalına bəslənən münasibətin müxtəlifliyindən də irəli gəlir. Belə ki, Seyid Cəmaləddinin istər sağlığında, istərsə də vəfatından sonra dostları, tərəfdarları və davamçıları olduğu kimi, ona rəğbət bəsləməyən rəqibləri, ideyalarından vəsvəsəyə düşən düşmənləri də var idi. M.Ə.Rəsulzadə 1912-ci ildə İstanbulda «Səbilürrəşad» dərgisində çap etdirdiyi «İran inqilabı tarixçəsi» başlıqlı məqaləsində yazırdı ki, özünə bir çox tərəfdarlar toplamış bu böyük adamın «tərəfdarlarından daha qüvvətli düşmənləri də törəmiş idi. Bu düşmənlər sırasında Nəsirəddin şah, dolayısı ilə Sultan Həmid olduğu kimi İngiltərə dövləti də vardı. Bu sonuncu düşmənin təzyiqi üzündən möhtərəm mücahid bütün dünyada rahatlıq üzü görmədi» (19, s.72). Və bu düşmənlər sırasına C.Əfqani fenomeninə siyasi məqsədlərdən dolayı yanaşan müəlliflər də daxildir (8, s.51-64).

Beləliklə, İslam dünyasında siyasi, dini-fəlsəfi gəlişmələrdə böyük rolu və təsiri olan «məşhur şərqlinin» - Cəmaləddin Əfqaninin həyat və fəaliyyətinə fərqli yanaşmaların obyektiv və subyektiv səbəblərlə bağlılığı göz önündədir. Bütün bunlara rəğmən, mütəfəkkirin həyat yoluna işıq salmaq, bioqrafiyasını hər cür siyasi və milli-dini ambisiyalardan uzaq tərtib etmək üçün tarixi faktlar, ilk mənbə və araşdırmalar yetərincədir. Bunların sırasında önəmli olanlardan biri milli-demokratik fikrimizin öndərlərindən Ə.Ağaoğlunun gündəliyindəki qeydlərdir.* Əhməd bəyin özünün də yazdığı kimi, o Seyid Cəmaləddinlə Fransada təhsil aldığı illərdə tanış olmuş və onların arasında isti müəllim-tələbə bağları yaranmışdır. Ə.Ağaoğlu gündəliyində yazır: «Cəmaləddin Əfqaniyə üç dəfə mülaki oldum. İkinci dəfə mülaqatımızda onun əsli haqqında məlumat istədim, verdikləri cavabı hüzurlarında dəftərimə köçürdüm. Sözlərini eynən nəql edirəm: «Mənim babam və anam əslən marağalıdır, fəqət sonra Həmədana köçmüşlər. Mən Həmədanda doğulmuşam. Həmədanda babamın işləri pozulduğundan Əfqanıstana hicrət etmək məcburiyyətində qalmışdır». Marağa Azərbaycanın türk şəhərlərindən biridir. Cəmaləddin azəri türkcəsini ana dili olaraq danışırdı» (1, v.2).

Türkiyəli professor H.Karaman belə hesab edir ki, «daha dəqiq dəlillər ortaya çıxana qədər Əfqaninin Əhməd Ağaoğluna verdiyi bu açıqlama təminedici qəbul edilməlidir» (13, s.457).

---

* Ə.Ağaoğlunun «Türk yurdu» jurnalında (c.1, №3.İst., 1911) dərc etdirdiyi «Siyasət: Türk aləmi» məqaləsində də verdiyi bu qeydindən C.Əfqanidən yazan bütün yerli və xarici tədqiqatçılar əsas mənbə kimi istifadə edirlər.

M.Ə.Rəsulzadə də türk əsilli İran mütəfəkkirləri sırasında C.Əfqanidən bəhs edir. Onun «İran türkləri» başlıqlı məqaləsindən aldığımız aşağıdakı cümlələr C.Əfqaninin soyunun türk, Vətəninin Cənubi Azərbaycan - İran olduğunu bir daha təsdiqləyir: «İranda intibah fikri dövrü olan sonuncu illərin əməl və zəka sahibləri tədqiq olunarsa, türk olan bir çox möhtərəm simalara təsadüf edilər. Bunlar böyük bir qeyrət və müvəffəqiyyətlə inkişaf və tərəqqi bayrağını yüksəklərə qaldıraraq şayani-təqdir olan ciddiyyətləri ilə iranlılığı oyandırmağa çalışmışlar. Bunlardan... başda Şeyx Cəmaləddin Əfqani gəlir ki, bütün Şərqin intibahındakı təsir dərəcəsi təsvir edilməzdir... Seyid hər nə qədər «Əfqani» deyə məşhurdursa da nəsli İranda Həmədan qəzasındakı Əsədabad kəndindədir» (19, s.24-25 və s.73).

Eyni məlumatları C.Əfqani ilə yaxın münasibətlərdə olmuş İranın o zamankı mətbuat və nəşriyyat naziri Məhəmməd Həsən xan Etimadüssəltənə Seyid Cəmaləddinin İrana ilk davamlı gəlişi zamanı nəşr etdirdiyi qısa bioqrafiyasında da verir (7, s.211; 17, s.8).

C.Əfqaninin İranın şimali-qərbində, Həmədan şəhəri yaxınlığındakı böyük Əsədabad kəndində anadan olduğunu və Azərbaycan türkcəsində danışdığını faktlarla təsdiqləyən N.R.Keddi «Seyid Cəmaləddin əl-Əfqani. Siyasi bioqrafiya» monoqrafiyasında yazır ki, Cəmaləddinin anadan olduğu Əsədabad kəndində əhalinin əksəriyyəti Azərbaycan türkcəsində danışırdı və şübhəsiz ki, Cəmaləddin də uşaqlıqdan türkcə Azərbaycan üslubunda danışa bilirdi (18, s.11).

İranda şah kazak briqadasının komandiri olmuş çar ordusunun polkovniki V.A.Kosoqovski də Seyid Cəmaləddinin həmədanlı olduğunu qeyd edir. 1896-1904-cü illərdə şah sarayı ilə yaxınlığı olan V.A.Kosoqovski Qafqaz hərbi dairəsi Baş ştabının şöbə rəisinə verdiyi raportda yazırdı: «Əlahəzrət Nəsirəddin şahı Mirzə Məhəmməd Rza adlı birisi öldürmüşdür. O, Seyid Cəmaləddin adlı alim seyidlərdən birinin xidmətində dururdu. Bu seyid Həmədan (Ekbatan) şəhəri əhlidir, çoxlu səyahət etmişdir, hərəsində bir neçə il yaşamaqla, Avropanın bütün əsas mərkəzlərində olmuşdur, həm də bir neçə Avropa dillərini öyrənmişdir» (12, s.37).

Bağdadlı professor Hasib əl-Samurai də öz araşdırmalarında mütəfəkkirin əfqanıstanlı olmadığı qənaətindədir. «Rəşid Riza» adlı əsərində C.Əfqaniyə o qədər də rəğbətlə yanaşmayan müəllif yazır: «Bu adam iranlı, əsədabadlı, həmədanlıdır. Əfqanlı deyildir... Cəmaləddinin atalarının, babalarının və tayfası ilə həmşəhərlilərinin məzhəbi sünni hənəfi deyil – cəfəri olduğu kimi, özünün məzhəbi də şiədir» (iqtibas üçün bax: 4, s.109-110).

Azərbaycan alimlərindən T.İbrahimov (Şahin) (11, s.63), M.Zehtabi (21, s.61), Ş.Qurbanov (16, s.7), T.Həsənzadə (5, s.106-110) öz araşdırmalarında C.Əfqaninin İranda doğulması və Azərbaycan türkü olması fikrini qəbul edirlər.

Beləliklə, göstərilən və digər tədqiqat əsərlərini, qaynaqları, tarixi faktları müqayisəli təhlil edərək və məntiqi nəticələr çıxararaq, C.Əfqaninin həyatı və fəaliyyəti haqqında məqbul saydığımız qısa məlumatı təqdim edirik.

Cəmaləddin Məhəmməd Səftər oğlu Əsədabadi Əfqani 1838-ci ilin[*] noyabrında İranda, Həmədan şəhəri yaxınlığındakı Əsədabad kəndində ziyalı bir ailədə dünyaya gəlmişdir. Onun atası Seyid[2] Səftər geniş biliyə malik, təvazökar bir din alimi olmuş, dövrünün bir çox məşhur üləmaları, o cümlədən on iki imami şiələrinin baş müctəhidi Şeyx Mürtəza Ənsari ilə əlaqələr saxlamışdır (18, s.12).

Uşaqkən valideynləri ilə Kabilə köçən Cəmaləddin ilk təhsili evdə atasından almış, sonra onu Qəzvində və Tehranda[**]davam etdirmiş, dini elmlər, tarix, fəlsəfə, coğrafiya, məntiq, siyasət və s. sahələrdə geniş bilik qazanmışdır (4, s.91; 6, s.333;17, s.8). C.Əfqaninin dünyagörüşünün formalaşmasında və elminin təkmilləşməsində İraqın Nəcəf şəhərində keçirdiyi təhsil illəri əhəmiyyətli rol oynamışdır. Burada o dövrünün məşhur üləmalarından olan müctəhid Hacı Şeyx Mürtəza Ənsaridən və axund Molla Hüseynqulu Həmədani Dərcəzini Şəvəndidən mükəmməl dərslər almışdır. Nəcəfin iki böyük şəxsiyyəti – tanınmış həkim və alim Ağa Seyid Əhməd Tehrani Kərbəlayi və İraqın böyük mücahidi, istedadlı ədib və şair Seyid Səid Hübbubi ilə dostluq Cəmaləddinin mənəviyyatına, həyata baxışlarının formalaşmasına və elminin tamamlanmasına güclü təsir göstərmişdir.

Nəcəfdə dörd il qaldıqdan sonra Cəmaləddin elmin digər sahələrini öyrənmək üçün Hindistana getmək qərarına gəlir. Ancaq atası onun aldığı biliklə kifayətlənməsini və valideynlərinin yanında qalmasını istəyir. Yeni arzularla yaşayan gənc Cəmaləddin atasına belə deyir: «Mən üfüqlərdə qanad çırpan və dünyanın geniş səmasını uçuş üçün dar hesab edən bir şahin kimiyəm. Sizə təəccüblənirəm, məni necə bu kiçik və dar qəfəsdə həbs etmək istəyirsiniz?» (8, s.14).

Beləliklə, Cəmaləddin 1856-cı ildə[***] Hindistana gedir, Kəlküttə şəhərində qaldığı təxminən bir il yarım vaxt ərzində avropalı müəllimlərdən təbiət elmləri və ingilis dili üzrə dərslər alır. Müqəddəs Həcc ziyarəti məqsədi ilə Kəlküttədən ayrılan Cəmaləddin səfər zamanı İranın, İraqın və Hicazın bir sıra şəhərlərində müxtəlif din və dövlət adamları ilə, ziyalılarla görüşür. Bu görüşlər on doqquz yaşlı Cəmaləddinin siyasi düşüncələrinin yetkinləşməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Həcc ziyarətini başa vurduqdan sonra Cəmaləddin 1857-ci ilin sonlarında Əfqanıstana gedir və 1868-ci ilin sonlarına qədər burada cərəyan edən siyasi olayların fəal iştirakçısı olur. Bu dövr C.Əfqaninin siyasi mübarizəyə qoşulduğu dövrdür.

Kabil şəhərində məskunlaşan Cəmaləddin əmir Dost Məhəmməd xanın hökumətində çalışmağa başlayır. 1863-cü ildə Dost Məhəmməd xanın vəfatından sonra hakimiyyətə Məhəmməd Əzəm xan gəlir və o, öz həmfikri C.Əfqanini baş vəzir təyin edir. Ancaq ingilislərin müstəmləkəçilik siyasətinə qarşı çıxan Məhəmməd Əzəm xanın əmirliyi uzun

---

[*] C.Əfqaninin 1837-ci və ya 1839-cu illərdə anadan olduğunu yazan müəlliflər də vardır. Bax: müvafiq olaraq (2, s. 471); (6, 333; 21, s.61 və s.).

[2] Ənənəyə görə, seyid ünvanı Məhəmməd peyğəmbərin nəslindən olanlara verilir. İ.Qoldsiyer mənbələrə istinadən yazır ki, Cəmaləddinin «ailəsi mühəddisindən məşhur Əli əl-Tirmizi vasitəsilə Hüseyn b. Əli ailəsinə dayanır» (15, s.82); bax: həmçinin (18, s.11). Mütəfəkkirin əl-Hüseyni nisbəsi də buradandır.

[**] Bəzi müəlliflər onun Qəzvindən sonra İsfəhan və Buxarada təhsil aldığını qeyd edirlər (7, s.17; 11, s.68).

[***] M.Fəxri bu tarixi yanlış olaraq 1853-cü il kimi göstərir (6, s.333).

sürmür, onun rəqibi Şir Əli xan ingilislərin dəstəyi ilə hakimiyyəti ələ keçirir. Məhəmməd Əzəm xan İranda sığınacaq tapır. Yeni hakimiyyətin nəzarət altında saxladığı C.Əfqaniyə isə İrandan başqa (Məhəmməd Əzəm xanla görüşməməsi üçün) hər hansı bir ölkəyə getmək icazəsi verilir. Bununla da 1868-ci ilin sonlarında C.Əfqaninin Əfqanıstandakı siyasi fəaliyyəti sona yetir və o bir daha bu ölkəyə dönmür. Buradan Hindistana mühacirət edən C.Əfqani Bombey (indiki Mumbayi – Q.M.) şəhərində yerləşir. Hindistanda Cəmaləddin islam islahatçılığının ilk böyük nümayəndələrindən Şah Vəliyullahın və onun övladları Şah Əbdüləzizin və Şah Əbdülqadirin əsərləri ilə tanış olur. Ancaq onun ingilislərə qarşı açıq düşmənçiliyindən və mübarizəsindən dolayı bir neçə aydan sonra yerli ingilis hökumətinin təkidi ilə Hindistandan da çıxarılır.

1869-cu ilin ortalarında Cəmaləddin Qahirəyə gəlir və burada yaşadığı qısa müddət ərzində fəaliyyətsiz qalmır, islam fəlsəfəsinə, Quran ayələrinin zəkaya uyğun şərhinə, Avropa dövlətlərinin müstəmləkəçilik siyasətinin mahiyyətinə dair mühazirələr oxuyur, söhbətlər aparır. Bu mühazirə və söhbətləri dinləmək üçün onun ətrafına ziyalılar, dövlət və siyasət adamları, xüsusən də gənclər toplaşırdı. Ancaq C.Əfqani Qahirədə çox qalmır, həm islahat planlarını xilafətin mərkəzində gerçəkləşdirmək amacı ilə (8, s.16), həm də Tənzimat dövrü islahatlarının yaratdığı dəyişikliklər şəraitində Osmanlı dövlət adamlarına təsir göstərmək ümidi ilə (18, s.62; 20, s.22) İstanbula yola düşür. Prof. H.Karamanın fikrincə isə, C.Əfqani ehtimal ki, Sultan Əbdüləzizdən aldığı dəvətə görə Hicaza getmək niyyətindən daşınır və İstanbula gedir (13, s.457).

İstanbulda C.Əfqani hörmət və ehtiramla qarşılanır. Tənzimat dövrünün islahatçılarından Saffət Paşa, Təhsin Əfəndi, Münif Əfəndi, Fuad Paşa açıq fikirləri, məntiqli söhbətləri ilə məşhur olan C.Əfqani ilə tezliklə isti münasibətlər yaradırlar və onu Böyük Maarif Məclisinə üzv seçirlər. Bəzi tədqiqatçılar onun Elm Komissiyasına da (Əncümən-i Daniş) üzv olduğunu yazırlar (13, s.457; 20, s.11).

Mütəfəkkir İstanbulda qaldığı müddətdə (1869-cu ilin payızından – 1871-ci ilin yazınadək) daha çox din və mədəniyyət məsələləri ilə məşğul olur, bu məsələlərlə bağlı öz ideyalarını geniş təbliğ edir. Tanınmış alimlər, ziyalılar, ədəbiyyat nümayəndələri və gənclər onun islamı mövhumat və xurafatdan təmizləmək, islam prinsiplərini rasionalistcəsinə şərh etmək, islam aləmini donuq durumdan qurtarmaq haqqında söhbətlərini və bu məsələlərə dair təkliflərini böyük maraqla dinləyirdilər. Bu söhbətlər, cəsarətli təkliflər eyni zamanda mühafizəkar din xadimlərində C.Əfqaniyə qarşı qısqanclığın və düşmənçilik münasibətinin yaranmasına da yol açırdı.

İstanbulun mühafizəkar din xadimləri ilə qarşıdurma yeni tipli universitetin (Darülfünun-i Osmani) açılışında və universitetin Ramazan ayında xalq üçün təşkil etdiyi maarifçilik mühazirələrində son həddə çatır. Universitetin 1870-ci il 20 fevral tarixinə təyin olunmuş açılışında Maarif naziri Saffət Paşa, Universitetin müdiri Təhsin Əfəndi və Böyük Maarif Məclisi başqanı Münif Əfəndi ilə yanaşı C.Əfqani də nitq söyləmişdi. Ərəbcə söylədiyi nitqində Seyid Cəmaləddin deyirdi: «Ey qardaşlarımız! İnkişaf etmiş başqa millətlərdən ibrət almazsınızmı? Onlar çalışıb-çabalamaları sayəsində maarifin məqsədlərinə, yüksəlişin sonlarına çatmışlar. Bu anda inkişaf etməyə bütün səbəbləri ilə birlikdə tənbəllik, ağılsızlıq və cəhalətdən başqa heç bir maneə yoxdur» (iqtibas

üçün bax: 4, s.108). C.Əfqaninin maarifə, tərəqqiyə çağıran nitqini Şeyxülislam Həsən Fəhmi Əfəndi və onun ətrafında olan ruhanilər narazılıq və narahatlıqla qarşılayırlar. Mühafizəkar üləmaların qəzəbini coşduran isə onun Ramazan gecələri çərçivəsində «Elm və sənayenin tərəqqisi» mövzusunda oxuduğu mühazirə olur (dekabr 1870).

M.Əbdühün yazdığı bioqrafiyaya görə, bu mövzuda mühazirə oxumağı C.Əfqanidən Təhsin Əfəndi xahiş edir. Ancaq Seyid Cəmaləddin İstanbul türkcəsinin zəif olduğunu səbəb gətirərək, təklifi qəbul etmir. Təhsin Əfəndinin israrından sonra C.Əfqani mühazirənin yazılı mətnini hazırlayıb Saffət Paşaya və Münif Əfəndiyə təqdim etmiş və onlar da mətni bəyənmişlər.

C.Əfqani mühazirəni geniş dinləyici kütləsi qarşısında oxuyur. Yüzlərlə insan – dövlət adamları, din xadimləri, ziyalılar, mətbuat nümayəndələri və gənclər onun çıxışını maraqla qarşılayırlar. Mühazirəsində Şeyx Cəmaləddin tələbatları baxımından insan toplumunu canlı bir bədənə bənzətmiş, bu tələbatları təmin edən müxtəlif sənət növlərini bədənin üzvləri ilə, peyğəmbərlik və fəlsəfəni isə bədənin ruhu ilə müqayisə etmişdir: «Bu bədənin ruhu isə ya nübüvvətdir, ya hikmətdir (fəlsəfə). Yalnız bunlar arasında fərq vardır. Belə ki, nübüvvət ilahi bir vergidir ki, kəsb ilə bunu əldə etmək olmaz. Allah istədiyinə verər. Hikmətə gəlincə, bu kəsbidir. Fikir və nəzərlə qazanılır.»(iqtibas üçün bax: 20, s.30-31). C.Əfqaninin peyğəmbərliyi də filosofluq, fəqihlik, təbiblik və s. kimi sənət adlandırmasından dolayı onu küfrdə təqsirləndirən Şeyxülislam Həsən Fəhmi Əfəndi əlinə düşən fürsətdən istifadə edərək Cəmaləddinə qarşı açıq hücuma keçir, din xadimlərini camilərdə onu «ifşa» etməyə çağırır. Xoşa gəlməyən söz-söhbətin səngiməsi üçün Baş vəzir Əli Paşa C.Əfqaninin «arzu etdiyi təqdirdə qayıda bilmək şərtilə İstanbuldan getməsi» qərarını verir. Və Şeyx Cəmaləddin Əfqani 1871-ci ilin martında yenidən Qahirəyə qayıdır ( 8, s.17-18; 20, s.34).

Məhəmməd Paşa əl-Məhzumi «Xatiratü Cəmaləddin əl-Əfqani əl-Hüseyni» kitabında yazır ki, Seyid Cəmaləddin İstanbuldan gedərkən onu yola salmağa gələnlərdən birinin sözlərinə cavab olaraq millətlərin nə dinsiz, nə də dövlətsiz yaşaya biləcəklərini, dinin xürafatla, dövlətin isə rəhbərlərin istibdadı ilə pozula biləcəyini və belə durumda islahatların zəruriliyini, qanunun sultanın iradəsilə deyil, xalqın azad iradəsi ilə formalaşmasının labüdlüyünü vurğulamışdır (bax: 13, s.458). Bu sözlər C.Əfqaninin dini islahat və mütərəqqi dövlət quruluşu haqqında ideyalarının əsas xəttini təşkil edirdi.

M.Əbdühün bioqrafiyasına görə, C.Əfqani Misirə burada uzun müddət qalmaq niyyəti ilə gəlməmişdi. Ancaq baş vəzir Mustafa Riad Paşanın isti münasibəti və təkidi ilə o, Qahirədə yerləşməli olur (bax: 14, s.7). Qaynaqlara görə, Riad Paşa Şeyx Cəmaləddinə 1000 quruş aylıq maaş təyin edir və əl-Əzhər məscidi yanında mənzil verir. Cəmaləddinin həmfikirlərindən suriyalı Səlim Anhurinin yazdığına görə, Riad Paşa C.Əfqanini şəriətin və dinin tədrisindən çəkindirir və Şeyx bir müddət bu sözə əməl edərək, günlərini müntəzəm olaraq oruc tutub ibadət etməklə keçirir. Fəal, fəhmli və düşüncəli tələbələrdən ardıcıllar toplayan Əfqani əl-Əzhərdəki mənzili tərk edərək, həmfikirləri ilə görüş yerinə çevrilən bir evə köçür (bax: 14, s.8).

Qahirədə yaşadığı 1871-79-cu illər Şeyx Cəmaləddinin həyatının önəmli, məhsuldar illəri olmuşdur. O, həmin dövrdə yerli ziyalılarla, dövlət və siyasət adamları ilə və hərbçilərlə əlaqələr yaratmış, gənc vətənpərvərləri ətrafına toplamışdı. Evi bir növ universitetə çevrilmişdi: buraya gələnlərə islamın təməl prinsiplərini, Quran ayələrini hər cür ənənədən uzaq, çağdaş anlamda şərh edir, ilкin islam dəyərlərinin dirçəldilməsi zəruriliyini anladırdı. Dini-fəlsəfi və elmi məzmunlu dərslərinə siyasi düşüncələrini də əlavə edərəк, dinləyicilərini Qərb müstəmləкəçiliyinə qarşı mübarizəyə səsləyirdi. Söhbətlərini Qahirənin meydanlarında və poçt qəhvəxanasında da aparan Əfqaninin azad, mütərəqqi düşüncəyə söyкənən mülahizələri mühafizəкar din xadimlərinin hiddətinə tuş gəldiyindən, o cümə ziyarətləri istisna olmaqla, əl-Əzhərə getmirdi (2, s.471; 8, s.19; 13, s.458).

C.Əfqani öz fiкirlərini hər кəsin başa düşəcəyi sadə, həm də ədəbi dildə anladırdı və ziyalıları, şairləri xalqın dilini inкişaf etdirməyə çağırırdı. Bundan başqa o Misirdə siyasi mətbuatın yaradılması üçün də çalışırdı. Cəmaləddinin rəhbərliyi və təlqini ilə həmfiкirləri və tələbələri qısa müddətdə bu yöndə xeyli iş gördülər. 1870-ci ilin ortalarında Misirin ictimai-siyasi və mədəni həyatında önəmli rol oynamış qəzet və jurnallar nəşr olunmağa başladı. Bunların sırasında Ədib İshaqın nəşr etdirdiyi «Misir» həftəliк siyasi qəzeti ilк nümunələrdən idi. Bunun ardınca Seyidin məsləкdaşı Səlim ən-Nəqqaş İsgəndəriyyə şəhərində «Ət-Ticarə» qəzetini çap etdirirdi. Səlim Anhuri Əfqaninin кöməyilə «Mirat aş-Şarк» («Şərqin güzgüsü») qəzetini nəşr etdirirdi. Şeyx Cəmaləddinin tələbələrindən İbrahim əl- Ləккaninin nəşr etdirdiyi «Şərqli qadın» dərgisi isə dövrün hadisəsinə çevrildi. Həm milli-dini ənənələrə, həm də yeni Avropa mədəniyyətinə yaxşı bələd olan satiriк şeirlər müəllifi Yəqub Sənnu da C.Əfqaninin məsləhəti ilə «Mavi eynəкli» satiriк jurnalını yaradır. «Bu jurnal Əfqaninin prinsiplərini təbliğ edir, xalqı islahat və azadlığa çağırırdı. Onun səhifələri satiriк şeirlər və кariкaturalar ilə dolu idi. Sadə xalq dilində oxucularına maraqlı lətifələr nəql edir, onları bir gözü ilə güldürür, digər gözü ilə ağladırdı» (8, s.20; 21, s.67).

Bu qəzet və dərgilər Əfqaninin siyasi və dini islahatçılıq ideyalarını yaymaqla misirlilərin ictimai şüurunun oyanmasında, milli-azadlıq hərəкatının hazırlanmasında mühüm rol oynadılar. Şeyx özü bu nəşrlər üçün Müzhir ibn Vəddah təxəllüsü ilə bir sıra məqalələr yazmışdı (10, s.258). Bu məqalələr Misir ziyalılarına, gənclərinə vətənpərvərliк hisslərini aşılayır, despotizmə və müstəmləкəçiliyə qarşı barışmazlığı təbliğ edirdi. Cəmaləddinin ideyalarının yayılmasında onunla həmfiкir olan, onun ideyalarını tərənnüm edərəк sadə dildə xalqa çatdıran Mahmud Sami əl-Barudi, Abdulla ən-Nədim, Hafiz İbrahim, Ədib İshaq, Yəqub Sənnu və b. кimi şairlər də xeyli əməк sərf etmişdilər (8, s.20; 18, s.96-98; 21, s.62-63).

Bu dövrdə C.Əfqani Misirin gələcəyinin təhlüкədə olduğunu görürdü. Çünкi hədiv* İsmayıl Paşanın bacarıqsızlığı və məsuliyyətsizliyi üzündən dövlət ağır borclar içində idi. Və ingilis müstəmləкəçiləri ölкənin müstəqilliyinə əl qoymaq üçün səylə çalışır və fürsət gözləyirdilər. Hədivin idarəçiliyindən narazı qalan Əfqani misirliləri

---

* 1867-1914-cü illərdə Misir hökmdarlarının titulu idi.

səfərbər etmək, Misiri çıxılmaz vəziyyətdən qurtarmaq üçün hər vasitəyə əl atırdı. O dövrdə Misirdə siyasi fəaliyyət göstərən heç bir milli cəmiyyət yox idi və ölkədəki mason cəmiyyətlərinin işi ilə tanış olan Şeyx Cəmaləddin «Azadlıq, Bərabərlik, Qardaşlıq» kimi təməl prinsiplərə dayanan masonluqdan siyasi məqsədlərini reallaşdırmaq üçün istifadə etmək qərarına gəlir və Baş Şotland Lojasına (General Scotch Lodge) daxil olur (3, s.16; 4, s.105-106; 13, s.458; 14, s.21; 18, s.93; 20, s.12 və d.). Onun silahdaşlarından M.Əbdüh, A.Nədim, Ə.Ərabi, Sami əl- Barudi və b. həmin lojaya üzv olurlar. Lakin çox çəkmir ki, Cəmaləddin və həmfikirləri loja üzvləri ilə fikir ayrılığı üzündən oradan uzaqlaşırlar. Qaynaqlarda göstərilir ki, fikir ayrılığına lojanın siyasətə qarışmaq istəməməsi və buna Əfqaninin etirazı səbəb olmuşdu (3, s.16; 14, s.22). Cəmaləddin hesab edirdi ki, mason cəmiyyəti də siyasi fəaliyyətlə məşğul olmalıdır. O deyirdi: «Mənim şövqlə arzuladığım birinci şey böyük və ləyaqətli azadlıq, bərabərlik və qardaşlıq simvolu altında azadlıq binası tikməkdir... Azadlıq, bərabərlik və qardaşlıq zülmün, qəddarlığın və despotizmin əsaslarının dağıdılması deməkdir. Məgər masonlar bunu istəmirlərmi?.. Əgər loja siyasətə qarışmamalıdırsa, azad bənnalar[*] isə öz alətlərini köhnənin dağıdılması və azadlıq, bərabərlik və qardaşlığın həqiqi binasının ucaldılması üçün istifadə etməməlidirlərsə, onda qoy onların əlləri heç zaman çəkic və künyə qaldırmasın!» (iqtibas üçün bax: 3, s.16).

C.Əfqani mason cəmiyyətinin heç də xalq kütlələrinin maraqlarını müdafiə etmədiyini və Avropa müstəmləkəçilərinin əlində bir vasitə olduğunu, elan etdiyi prinsip və məqsədlərdən uzaq, gizli əməllər törətdiyini başa düşmüşdü və söhbətlərində, çıxışlarında onu cəsarətlə ifşa edirdi. Buna görə də o məsləkdaşları ilə birlikdə 1878-ci ildə Misirin və misirlilərin mənafeyinə xidmət edəcək bir cəmiyyət - Böyük Şərq Lojasına (Grand Orient Lodge) bağlı Milli Loja yaratdı. Qısa müddətdə Misirin ictimai-siyasi həyatında təsiredici rol oynamış Milli Lojanın fəaliyyəti müxtəlif bölmələr (hüquq, maliyyə, hərbi, ictimai işlər və s.) üzrə qurulmuşdu. Bölmələr nazirliklər və digər hökumət qurumları ilə sıx əlaqə saxlayır və buraxılmış nöqsan və ədalətsizliyi aradan qaldırmağa çalışırdı. Bölmələrin gördüyü işlər toplantılarda və mətbuat vasitəsilə ictimaiyyətə çatdırılırdı. Lakin Milli Lojanın fəaliyyəti məhdud çevrəni – şəhər əhalisinin az bir hissəsini əhatə edirdi. Milli ideyaları daha geniş kütlə içərisinə çıxarmaq üçün siyasi partiya lazım idi. Çox keçmədi ki, Şeyx Cəmaləddinin loja ətrafında birləşmiş məsləkdaşları Misirin ilk siyasi partiyasını - «əl-Hizbül-Vətən» cəmiyyətini yaratdılar (3, s.17; 10, s.258-259; 11, s.68; 18, s.93; 20, s.12). Tezliklə Misirin azad düşüncəli ziyalıları, vətənpərvər hərbçiləri, dövlət və siyasət adamları bu cəmiyyətə daxil oldular. Hətta İsmayıl Paşanın oğlu, sonralar hədiv olmuş Tevfik Paşa da cəmiyyətin üzvü idi. «Hizbül-Vətən» Misirin siyasi və iqtisadi azadlığına nail olmaq, xaricilərin fəaliyyətlərini məhdudlaşdırmaq, dövlət idarəçiliyində islahatlar keçirmək və s. uğrunda çalışırdı. Məhz bu dövrdə «Hizbül-Vətən» cəmiyyətinin üzvləri «Misir misirlilər üçündür!» şüarını irəli sürmüşdülər. Bu dövrdə Şeyxin siyasi fəaliyyəti daha da genişlənir. O, Qahirədən başqa digər şəhərlərdə də yığıncaqlarda, küçə toplantılarında

---

[*] masonluğun fransızca franc maçon – azad bənna sözündən götürülməsinə işarədir.

çıxışlar edir, siyasi islahatlar haqqında ideyalarını yayırdı. Tarixi məlumatlara görə, Əfqani 1879-cu ilin yayında İsgəndəriyyədə «Gənc misirlilər cəmiyyəti»ni yaratmışdı (3, s.18).

Hədiv Tevfik Paşa Şeyxin və məsləkdaşlarının fəaliyyətlərinin dərinə getməsindən çox narahat olur və Əfqaniyə müraciət edərək, misirlilərin cahil və ağılsız olması üzündən islahatlar üçün vaxtın yetişmədiyini deyərək, fikrini belə tamamlayır: «Coşqulu sözləriniz və düşüncələriniz Misir xalqını və ölkəni böyük təhlükələrə sürükləyəcək». Şeyx Cəmaləddin hədivin sözləri ilə razılaşmayaraq, ona belə cavab vermişdi: «Şübhəsiz, Misir xalqında da dünyanın digər xalqlarında olduğu kimi ağılsız və cahil insanlar vardır. Amma bu, xalqdan ağıllı və mədəni insanların çıxmasına əngəl deyildir. Sizin Misir xalqına baxdığınız durbinlə onlar da sizə baxırlar, cənab. Əgər öyüdümü dinlər, xalqı ölkə idarəçiliyinə ortaq edəcək biçimdə onların özlərini təmsil edəcək vəkilləri seçmələrinə izin verərsinizsə və qanunları bu vəkillərin təşkil etdiyi bir məclis qoyarsa, şübhəsiz bu, taxtınızı sağlamlaşdırıb hökmranlığınızı daimi edəcəkdir» (iqtibas üçün bax: 8, s.44).

Cəmaləddinin sözləri hədivin narahatlığını daha da artırmış oldu. Digər tərəfdən isə, İngiltərə və Fransa hökumətləri də Şeyxin fəaliyyətindən narazı və narahat idilər. Bu dövlətlərin Misirdəki konsulluqlarının, habelə Şeyxin dini islahat haqqında çıxışlarından hiddətlənən əl-Əzhərin mühafizəkar üləmalarının tələbi və israrı ilə və sözsüz ki, özü üçün də əlverişli olduğuna görə, hədiv Tevfik Paşa Əfqaninin ölkədən çıxarılmasını əmr edir. Yayılan rəsmi sənəddə Şeyx Cəmaləddin qanuni hakimiyyətə qəsddə və «dinin və dövlətin məhvini əsas götürən» gizli cəmiyyətin rəhbəri kimi ittiham olunur və xalqın, xüsusən də gənclərin onunla görüşməsi yasaqlanırdı. 1879-cu il avqustun 26-da gecə isə Cəmaləddin Qahirədə həbs olunur və ingilislərin nəzarəti altında Hindistana göndərilir.

Beləliklə, C.Əfqani Misirdən çıxarılır. Buradakı fəaliyyəti dövründə Cəmaləddin ölkənin siyasi həyatında dərin izlər buraxdı, bir çox tələbə və davamçılar yetişdirdi, Ərabi Paşa üsyanının hazırlanmasında və baş tutmasında (1882) mənəvi təsiri böyük rol oynadı. Onun ən yaxın dostu və tələbəsi Məhəmməd Əbdühlə tanışlığı və məsləkdaşlığı da bu dövrə təsadüf edir.

C.Əfqani Hindistana gəldikdən sonra bir neçə il orada əvvəlcə Bombey şəhərində, sonra isə Heydərabad və Kəlküttədə nəzarət altında sıxıntılı bir həyat keçirir. Ancaq buna rəğmən mütəfəkkir həm, məhdud da olsa, siyasi fəaliyyətini davam etdirir, həm də bir sıra əsərlər – materializmin tənqidinə həsr olunmuş bir kitab və bir neçə məqalə yazır. Elmi-tarixi ədəbiyyatda onun «Əl-Ürvətül-vüska» beynəlxalq islami cəmiyyətin əsasını bu dövrdə qoyması haqqında da məlumat var (8, s.21).

C.Əfqani Hindistandan yalnız 1882-ci ilin sonlarında – Misirdə Ərabi Paşanın rəhbərlik etdiyi üsyan ingilislər tərəfindən yatırıldıqdan və ölkə ələ keçirildikdən sonra çıxa bilmişdir. Müsəlman ölkələrində İngiltərə müstəmləkəçiliyi əleyhinə gördüyü işlərdən ehtiyatlanan ingilislər ona bu ölkələr istisna olmaqla, hər hansı bir ölkəyə getməyə icazə verirlər. Şeyxi yaxından tanıyan V.S.Blant qeyd edir ki, Cəmaləddin Hindistandan Amerikaya getmiş və bu ölkənin vətəndaşlığını qəbul etmək istəmişdir. Lakin o, Amerikada olarkən niyyətindən

daşınmış, bir neçə aydan sonra Londona getmişdir (15, s.83). Bəzi tədqiqatçılar isə Əfqaninin Amerikaya getməsi faktının doğruluğunu təsdiqləmirlər (13; 14; 17; 18).

## ƏDƏBİYYAT


1. Ağayev Ə. Tərcümeyi hal acizanəm // M.Füzuli adına Respublika Əlyazmaları İnstitutu, fond 21, saxlama vahidi 403.
2. Bammat H. İslamın Manevi ve Kültürel Değerleri.- İst., 1977.
3. Богушевич О.В. Мухаммад Джемаль ад-Дин аль Афгани как политический деятель // Краткие сообщения Института народов Азии.- М., 1961, т.47.
4. Davudoğlu A. Dini Tamir Davasında. Din Tahripçileri.- İst., 1997.
5. Əfqani C. 160 illiyi münasibətilə konfrans materialları və «Cəmaləddin Əfqani və türk dünyası» kitabı haqqında məqalələr (çapa hazırlayan prof. Ş Qurbanov).- B., 2000.
6. Fakhry M. A Histori of Islamic philosophy.- New York, 1983, 2-nd edit.
7. Həsənzadə T. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri.- B., 2001.
8. Hüsrevşahi S.H. Giriş // Afqani C., Abduh M. El-Ürvetül – vüska.- İst., nəşr ili göstərilmir.
9. Хакимов И. Джамаль ад-Дин аль-Афгани философ и реформатор // Азия и Африка сегодня.- 1989, №12.
10. Хакимов И.М. Современная историография ОАР о Джамаль ад-Дине Афгани // Религия и общественная мысль народов Востока.- М., 1971.
11. İbrahimov (Şahin) T.A. İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906).- B., 1967.
12. Из тегеранского дневника полковника В.А.Косоговского.- М., 1960.
13. Karaman H. Efqani Cemaleddin // İA, c. 10.- İst., 1994.
14. Kedourie E. Afghani and Abduh. An Essay on religious unbelief and political activism in Modern Islam.- London, 1966.
15. Qoldsiyer İ. C.Efqani // İA, s. 3.- İst., 1945.
16. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası.- B., 1996.
17. Nikki R.Keddie. An Islamic Response to Imperialism/ Political and Religious Writings of Sayyid Jamal ad-Din "al-Afghani".- Berkeley, Los Angeles, London, 1983, 2-nd edit.
18. Nikki R.Keddie. Sayyid Jamal ad-Din "al-Afghani". A Political Biography.- Berkeley, Los Angeles, London.
19. Resulzade M.E. İran Türkleri.- İst., 1993.
20. Türköne M. Cemaleddin Afqani.- Ankara, 1994.
21. Zehtabi M.T. Cəmaləddin əl-Əfqaninin şifahi ərəb dili və ədəbiyyatına münasibəti // ADU-nun Elmi əsərləri. Şərqşünaslıq seriyası, №1.- B., 1969.


## ЖИЗНЕДЕЯТЕЛЬНОСТЬ ДЖ.АФГАНИ
**Статья первая**


**Г.Дж.МУРШУДЛУ**


### РЕЗЮМЕ


Крупный представитель исламского реформаторства Дж.Афгани является одним из тех мыслителей Востока, о жизнедеятельности которого очень много написано. Вместе с тем, сведения о месте и дате его рождения, национальности, о религиозных взглядах, а также деятельности в целом, остаются противоречивыми и спорными. Жизнедеятельность, религиозное и политико-философское наследие Шейха

Джемаледдина не достаточно отражено также в историко-философской литературе в Азербайджане.

В статье, на основе изучения обширной научной литературы и источников, осмысливаются и хронологически последовательно освещаются первые периоды жизни и деятельности Дж.Афгани.

В статье делается попытка прояснить проблему о национальном происхождении и месте рождения мыслителя, анализируются сведения о периоде формирования его мировоззрения и включения в политическую борьбу, подчеркивается значимость деятельности Афгани в Египте.

**THE LIVING ACTIVITY OF J.AFGHANI**
**The first article**

**G.J.MURSHUDLU**

**SUMMARY**

The great representative of the Islamic reformation J.Afghani is one of those thinkers of the East, whose life and activity is carefully described. At the same time, the information about the place of birth and his birthday, nationality, attitude to religion, and also activity as a whole, remains contradictory and disputable. The living activity, religious and political-philosophical heritage of Sheikh Jamaladdin is not reflected enough in the historico-philosophical literature in Azerbaijan.

In the article, on the basis of study of the vast scientific literature and sources, the first periods of life and activity of J.Afghani are comprehended and chronologically illuminated.

In the article there is an attempt solve the problem about the nationality and the birthplace of the thinker, the information about the period of formation of his world view and inclusion in a political struggle is analyzed, the importance of the activity of Afghani in Egypt is emphasired.